**FİLOLOGİYA**

**UOT 82**

# "MƏCMƏÜŞ-ŞÜƏRA" ƏDƏBİ MƏCLİSİNİN AĞASƏLİM FƏDAİ YARADICILIĞININ İNKİŞAFINA TƏSİRİ

**Aytən HÜSEYNOVA***

Məqalə redaksiyaya daxil olmuşdur: 21 yanvar 2025; çapa qəbul edilmişdir: 11 iyun 2025; online-da çap edilmişdir: 25 iyun 2025.

Received: 21th of January, 2025; accepted: 11th of June, 2025; published online: 25th of June, 2025.

**Açar sözlər:** *"Məcməüş-şüəra", ədəbi məclislər, Abşeron ədəbi mühiti, Məşədi Azər, Ağasəlim Fədai*

## Giriş

Ədəbiyyat tarixində sənət adamlarının, şairlərin, yazıçıların bir araya toplaşması, məclislər təşkil etməsi ənənəsi qədim dövrlərdən başlamışdır. Ədəbi məclislər fəaliyyət göstərdiyi dövrün ədəbiyyatını və tarixini ətraflı öyrənmək baxımından böyük əhəmiyyət kəsb edir. XIX əsrdən başlayaraq Azərbaycanın müxtəlif bölgələrində ədəbi məclislər yaranıb fəaliyyət göstərmiş, Bakı kəndlərinin bir çoxunda şeir və musiqi məclisləri qurulmuşdur. Azərbaycan poeziyasının inkişafında mühüm rolu olan bu məclislərə bədii zövqü, yaradıcılıq istiqaməti yaxın olan Bakı və Bakıətrafı kəndlərin istedadlı ədibləri toplaşar, fikir mübadiləsi edərdilər. Bu dövrdə Azərbaycanın, xüsusilə Bakının ən çətin, mürəkkəb və qarmaqarışıq bir dövrü idi. Ölkədə baş verən hadisələr bədii söz sənətindən də yan keçmir, Azərbaycanın ictimai-siyasi həyatında baş verən dəyişikliklər maarif, mədəniyyət və ədəbiyyat sahələrinə də öz təsirini göstərirdi. Ədəbiyyatda ideya və məzmun baxımından müxtəlif mövzulu əsərlər və ədəbi cərəyanlar formalaşmağa başlayır, maarifçi və demokratik fikrin güclənməsi ictimai şüurun inkişafına böyük təsir göstərirdi. Bu məclisləri təsis edən tərəqqipərvər Azərbaycan ziyalılarının qarşısında duran əsas məqsəd xalqa xidmət etmək, onu maarifləndirmək idi.

## 1. "Məcməüş-şüəra" Ədəbi məclisinin Ağasəlim Fədainin yaradıcılığına təsiri

Azərbaycan ədəbiyyatında ədəbi məclislərin yaranması saray şairlərinin yazıb-yaratdığı dövrlərdən başlamış, sonrakı dövrlərdə də məclis ənənəsi davam etmişdir. Lakin XIX əsrdə formalaşan məclislər əvvəlki dövrlə müqayisədə nisbətən müstəqil və sərbəst idilər. Akademik Həmid Araslı orta əsr ədəbi məclislərinin iş prinsipini təsvir edərək göstərir ki, "ədəbi məclislərdə qədim məşhur şairlərdən nümunələr seçilir və bütün məclis əhli tərəfindən nəzirələr yazılırdı. Eyni zamanda bu yazılan nəzirələr məclisdə müzakirə edilib hansının daha müvəffəqiyyətli olduğu müəyyənləşdirilirdi. Bu cəhətdən məclisin işi bir növ ədəbi müzakirə səciyyəsi alırdı. Lakin bu müzakirələr, əsa-

* *doktorant, Nizami Gəncəvi adına Milli Azərbaycan Ədəbiyyatı Muzeyi*
*e-mail:* ayten.mirqasimova@mail.ru
**https://doi.org/10.30546/25194011.2025.14.2.241**

sən, əsərin mənası üzərində deyil, şəkil xüsusiyyətləri ətrafında gedirdi" (1, s. 95). Lakin XX əsr şairləri ətrafda baş verən hadisələrə fəal münasibətləri ilə orta əsr şairlərindən fərqlənirdilər. Bu dövr şairlərinin yaradıcılığında mövzu və ideya, məzmun rəngarəngliyi özünü göstərir, dünyada gedən ictimai-siyasi və ədəbi-mədəni proseslər şairlərin şüuruna güclü təsir etdiyi kimi əsərlərində də özünün bədii ifadəsini tapırdı. Bu məclislərdə şairlər Nizami, Füzuli, Firdovsi, Ömər Xəyyam kimi klassiklərin əsərlərini dərindən öyrənir, sənətkarlıq xüsusiyyətlərini təhlil edir, onların ənənələrini davam etdirirdilər. Bununla bərabər, bədahətən şeir söyləmək, öz yaradıcılıqlarını təkmilləşdirmək onlar qarşısında duran əsas məqsədlərdən biri idi. Nəsrəddin Qarayevin "XIX əsr Azərbaycan Ədəbi Məclisləri" kitabında qeyd olunur ki, "Məclisdə müşairələr olurdu. Onlar bədahətən bir beyt və yaxud bir neçə beyt qəzəl dedikləri kimi, klassik bir şairin, daha çox isə Füzulinin divanını açaraq, ilk dəfə rast gəldikləri bir qəzələ nəzirə yazardılar. Bu nəzirələr çox vaxt bədahətən deyilirdi" (10, s. 277).

XIX əsrdə Bakıda yaranan və Abşeron ədəbi mühitinin formalaşmasında müstəsna rolu olan məclislərdən biri "Məcməüş-şüəra", yəni şairlər məclisi idi. F.Qasımzadənin "XIX əsr Azərbaycan Ədəbiyyatı Tarixi" kitabında bu məclisin 1880-ci ildə təsis olunduğu qeyd edilir. Məclisin fəaliyyəti və qapanması ilə bağlı müxtəlif fikirlər vardır. Bəzi mənbələrdə məclisin 1915-ci ildə fəaliyyətinin dayandırıldığı yazılsa da, ömrünü Bakı-Abşeron ədəbi mühitinə həsr edən ədəbiyyatşünasımız Cəfər Rəmzi İsmayılzadə "Məcməüş-şüəra"nın 1923-cü ilədək fəaliyyət göstərdiyini qeyd edir. Məclisə Məhəmməd ağa Cümri rəhbərlik edirdi. Yarandığı ilk vaxtlarda tərkibində müxtəlif zümrələrin nümayəndələri olan məclis iştirakçıları onun İçərişəhərdəki evində toplaşardılar. Şahin Fazilin "Təzkireyi-Şahin" kitabında qeyd olunur ki, 1980-ci ildə "Məcməüş-şüəra"nın 100 illiyi ilə əlaqədar məclisin yenidən fəaliyyətə başlaması ilə bağlı tədbirlər görüldü və 1980-ci ilin fevral ayında məclis yenidən fəaliyyətə başladı.

İlk vaxtlarda beş-on nəfər üzvü olan "Məcməüş-şüəra"nın sonralar otuzdan artıq iştirakçısı oldu. Onların sıralarında Ağadadaş Sürəyya, Mirzə Ağa Dilxun, İbrahim Zülali, Vəhab Vahib, Mirzə Mehdi, Əlabbas Müştaq, Əbülhəsən Vaqif, Mirzə Əbdülxaliq Yusif, Mikayıl Seydi, Mirzə Əbdülxaliq Cənnəti, Mirzə Məhəmməd Müsəvvir, Mirzə Rzaqulu Həzarə, Ağadadaş Müniri, Mirzə Hadi Sabit, Hüseyn bəy Vəhdəti, Ağakərim Salik, Haşım bəy Sağib, Seyid Zərgər, Məşədi Azər Buzovnalı, Şahin Nardarani, Mirzə Məhəmmədəli Binəva, Hacı Muxtar Müznib Zabrati kimi dövrün ziyalıları var idi. Bu simalar mədəni mühitin yaranmasında və formalaşmasında bilavasitə rolu olan, xalqın arasından çıxan şair, xanəndə, rəssam, musiqiçi və başqa zümrələrin nümayəndələri idilər.

Məclislərdə iştirak edən şairlərin çoxu mədrəsə, mollaxana təhsili gördüklərindən, onlar əsasən iki dildə şeirlər yazardılar. İlk əvvəllər Azərbaycan və fars dillərində yazmalarına baxmayaraq, artıq XX əsrin əvvəllərindən başlayaraq, əsasən, ana dilinə üstünlük verilirdi. Öz zamanının poetik ensiklopediyası olan məclislər həm də ədəbi məktəblərə çevrilmiş, gənclərdə ana dilinə məhəbbət, Azərbaycan poeziyasına həvəs oyatmaqda və bir sıra Azərbaycan şairlərinin yetişib püxtələşməsində əhəmiyyətli rol oynamışdır.

Bu məktəbdə formalaşan şairlərdən biri də yaradıcılığa gənc yaşlarından başlayan buzovnalı Ağasəlim Fədaidir. İslam ənənələrini daim uca tutan Bakı kəndlərində keçirilən poeziya, muğam və təziyə məclisləri şairin yaradıcılığına öz təsirini göstərmişdir.

XX əsr Abşeron ədəbi mühitinin istedadlı nümayəndələrindən biri olan Fədai mütaliə etməyi çox sevərdi. Klassiklərin yaradıcılığına böyük həvəs göstərən şair, onların əsərlərini oxuyub tərcümə edər və bütün yaradıcılığı boyu öyrəndiklərindən bəhrələnərdi. Fədai XX əsrin görkəmli simalarından olan Məşədi Azər, Ağadadaş Müniri, Əbdülxaliq Cənnəti, Əliağa Vahid, Haşım bəy Sağib kimi söz ustaları ilə görüşə bilmiş,

klassik ədəbiyyatın incəlikləri ilə yaxından tanış olmuşdur. Onun sənətə gəlməsində böyük rolu olan Məşədi Azər Ağasəlim Fədainin həyat və yaradıcılığında silinməz iz qoymuş şəxslərdən biri, bəlkə də birincisidir. Çünki onlar arasında qırılmaz bir bağ var idi. İmaməliyevlər nəslinin ağsaqqallarından olan Məşədi Azər İmaməliyev Ağasəlim Fədainin həm müəllimi, həm də əmisi oğlu idi. Məşədi Azərin “Seçilmiş əsərləri” kitabında da qeyd edilir ki, “Buzovna kəndinin Qüdrətli Qüdrət, Haşım bəy Sağib, Həncəli Şeyda, Əliağa Şərqi, Musa Qəmli, Ağasəlim Fədai və başqa şairlərin ilhamçısı məhz Məşədi Azər olub” (11, s. 270).

Ağasəlim Fədainin qızı Lalə İmaməliyeva ilə həmsöhbətimiz zamanı o söyləyir ki, anam Əşrəf xanım bizə atamdan danışarkən deyərdi ki, “Ağasəlimin əmisi oğlu Azərə böyük hörməti var idi. Azər onu gənc vaxtlarından özü ilə birlikdə məclislərə aparar, sənətin sirlərini öyrədərmiş. Onu özünə ağsaqqal, müəllim hesab edərdi”. Nəzərə alsaq ki, Ağasəlim Fədai 1903-cü ildə anadan olub, o bu məclisdə iştirak edəndə 15-20 yaşlarında bir gənc idi.

Məşədi Azərin nəvəsi şairin büstünün açılış mərasimindəki çıxışında İmaməliyevlər nəslinin köklərindən bəhs edərkən babasının gənclərə yol göstərən, müəllimlik edən ustad şair kimi tanınmasından söz açaraq söyləyir ki, “Azər babam böyük bir nəslin ağsaqqalı olub. Onun dörd qardaşı, əmioğlanları, dayıoğlanları və onların övladları həmişə babama hörmət ediblər və tez-tez onun yanına gəlirdilər. Ağasəlim (Ağasəlim Fədai) əmioğlu da şeir yazardı və babamın yanına gəlib öz şeirlərini oxuyardı” (4, s. 17).

Məşədi Azərin yaradıcılığına nəzər saldıqda onun Ağasəlim Fədaiyə ithaf etdiyi belə bir şeirinə rast gəlirik:

*Etdi nəhhabi-xəzan qarət çəmən pirayəsin,*  
*Başımızdan kəsdi yarpaqsız ağaclar sayəsin.*  
*Ğeyrə təfsir etmə məzmuni-xətti-müşkinini,*  
*Heyfdir, küffarə təlim etmə Quran ayəsin.* (11, s. 203)

## 2. Ağasəlim Fədainin Azər Buzovnalıya ünvanladığı məktublar

Dövrün amansızlıqlarına görə Fədai uzun müddət qürbət ellərdə yaşamağa məcbur olur. Qürbətdə olduğu vaxtlarda Fədai Azərə tez-tez məktublar yazar, yeni şeirlərini oxuyub dəyərləndirməsi üçün ona göndərərdi. Lakin bu məktublardan yalnız ikisi Əlyazmalar İnstitutunda 12 nömrəli fondda mühafizə olunan Məşədi Azərin arxivindən tapılmışdır. 1949-cu ildə Azərin özü tərəfindən fonda təqdim olunmuş sənədlər qruplaşdırılmışdır. Əsərləri, tərcümələri, məqalələri, Azər Buzovnalının məktubları, Azər Buzovnalıya yazılmış məktublar və sair başlıqlarla qovluqlarda yığılmışdır. “Azər Buzovnalıya yazılmış məktublar” qovluğundakı əlyazmaları nəzərdən keçirtdikdə Ağasəlim Fədai tərəfindən ona ünvanlanmış məktublara rast gəlirik.

Harada və nə vaxt yazıldığı qeyd olunmayan birinci məktub ərəb qrafikası ilə Azərbaycan dilində, damalı vərəqdə, bənövşəyi mürəkkəblə yazılmışdır. Məktubda müəllif Azərin halını soruşduqdan sonra ona Füzulinin “Pənbeyi-daği-cünun içrə nihandır bədənim” misrası ilə başlayan qəzəlinə yazdığı təxmisi və qəzəlini göndərdiyini qeyd edir.

Məktub belə başlayır: “Möhtərəm əmioğlum Məşədi Azər! Əvvəla, sizin salamat olmağınızı arzulayıram. Və saniyən mənim halımdan xəbər tutmaq istəsən, sağ-salamat olmaq ilə ömrünüzə duagər varam. Təxmis etdiyim Füzulinin qəzəlilə yeni yazdığım bir öz qəzəlimi sizin üçün göndərirəm” (5).

Bu məktubda Füzulinin “Pənbeyi-daği-cünun içrə nihandır bədənim” qəzəlinə yazdığı təxmisi belə başlayır:

*Baği-ümmində çiçəkləndi al-əlvan süsənim,*
*Açdı amalım ilə qırmızı güllər çəmənim.*
*Nə qəmim var, boy atar sərv kimi yasəmənim.*
*Pəmbeyi-daği-cünun içrə nihandır bədənim,*
*Diri olduqca libasım budur, ölsəm kəfənim* (5).

Fədainin 1941-ci ilin may ayının 23-də yazdığı digər məktub isə ərəb qrafikası ilə Azərbaycan dilində, damalı vərəqdə, bənövşəyi mürəkkəblə yazılmışdır. Məktubda Fədai Azərin eyni rədifli qəzəlinə nəzirə yazdığı, səkkizbənddən ibarət olan "Olmaqdansa" rədifli təxmisini göndərmiş, həmçinin məktubunda şeirdəki nöqsan və qüsurlara görə ustadından üzr istəmişdir.

Məktub kiçik şeir parçasından sonra belə başlayır: "XXI-də xəstəxanadan çıxdım. Kəndə gəlməyə imkan yoxdur. Mümkün olsa, bu gün və yaxud ayın 25-də Krasnovodskiyə yola düşəcəm. Xəstəliyim əvvəlkindən yaxşıdır. Görək axırı nə olur. Təxmis etdiyim qəzəlləri sizə göndərirəm" (5).

Məktubları nəzərdən keçirdikcə aydın olur ki, ustadı ilə şairin arasında hər zaman qırılmaz bir bağ olub. 1941-ci ildə Ağasəlimin artıq 38 yaşı var idi. O dövrün ədalətsizliyi ucbatından vətəndən uzaqda yaşamasına baxmayaraq, yaradıcılığının hər dövründə Azərdən məsləhət almağı unutmur, onu həm nəslin, həm də özünün ağsaqqalı kimi hörmət və ehtiramla yad edirdi. Fədai yaradıcılığı boyu Məşədi Azərə bir neçə şeir ithaf etmişdir.

Fədainin yaxın dostlarından, qələm yoldaşlarından biri də Haşım bəy Sağib idi. Dövrünün sayılıb-seçilən şairlərindən biri olan Sağib Fədainin ədəbi zövqünün formalaşmasına, qələminin püxtələşməsinə köməklik göstərmişdir. Haşım bəy Sağibin qızı Nuriyyə xanım deyirdi: "Məcməüş-şüəra" haqqında ən çox atamdan, xüsusilə bir çox şairin ustadı, mənəvi atası hesab edilən Məşədi Azərdən eşitmişəm, onları dinləmişəm. Bu bir həqiqətdir ki, atam həmin məclisin ən qüdrətli, coşqun təbiətli şairlərindən olub. Onun ən yaxın dostu Məşədi Azəri, Səməd Mənsuru, Ağadadaş Münirini, Əbdülxalıq Yusifi, gənc dostlarından Cəfər Cabbarlını, Əliabbas Müznibi, Mikayıl Müşfiqi, Ağasəlim Fədaini evimizdə görmüşəm, ara-sıra söhbətlərini də eşitmişəm, dinləmişəm. Atam mənə həmişə deyərdi ki, Məşədi Azər böyük şairdir, ədəbiyyat tariximizdə onun qədər dərin zəkalı, məlumatlı və məhsuldar şair az olub" (8, s. 52). Elə bu sətirləri oxuyarkən aydın olur ki, Ağasəlim Fədai dövrünün bir çox ziyalıları ilə yaxından tanış olmuş, yaşının gənc olmasına baxmayaraq, onlardan ədəbiyyatın, şeirin, sənətin dərinliklərini öyrənmişdir.

Azərbaycan və fars dillərini mükəmməl bilən Ağasəlim klassik Şərq poeziyasına, o cümlədən Azərbaycan poeziyasının bütün incəliklərinə bələd olan istedadlı şairdir. Fədai yaradıcılığında bir tərəfdən əruzun müxtəlif bəhrlərindən istifadə etmiş, digər tərəfdən isə xalq poetikasının forma və xüsusiyyətlərindən məharətlə bəhrələnmişdir. O, divan ədəbiyyatına gözəl hakim olduğundan klassik üslubda qəzəl, müxəmməs, təxmis və s. yazıb yaratmışdır. Bu qəzəllər böyük peşəkarlıqla, heyrətamiz bədii ifadə vasitələri ilə qələmə alınmışdır.

*Saqiya, dur ayağa, ver mənə bir zərrin cam,*
*Kim içim badə, alım nəşə, olum şirin kam.*
*Fürsəti fövt eləmə, vaxt ötür, əyyam dolanır,*
*Gülşəni-ömür solur, məhv olur amalı-məkan* (8, s. 22).

Klassik şeir janrları içərisində, əsasən, qəzələ üstünlük verən Fədainin digər janrlarda yazdığı şeirlərinin bir hissəsi günümüzə gəlib çatmışdır. Bu şeirləri nəzərdən

keçirdikcə aydın olur ki, şair təkcə qəzəl janrında deyil, ümumiyyətlə, digər janrlarda da əsərlər yaratmağa qadir olmuşdur. Eyni zamanda Fədai şifahi xalq ədəbiyyatından yaradıcılığı boyu olduqca çox bəhrələnmiş, bir çox qoşma və bayatıların müəllifidir.

*Fədaiyəm, mənəm, mən, Çox eylədim mənəm-mən.*
*İndi torpaq altında Yatan, tanı, mənəm, mən.*

İstər ərəb, istər fars, istərsə də türkdilli Azərbaycan ədəbiyyatının ən zəngin qollarından birini dini ədəbiyyat təşkil edirdi. "Məcməüş-şüəra"nın, demək olar ki, bütün üzvləri müqəddəs Qurani-Kərimə mükəmməl surətdə bələd idilər. Dini və mənəvi düşüncəyə, klassik ənənələrə böyük bağlılıq XX əsr Abşeron ədəbi mühitinin lirik şeirinin əsas bir qolunu təşkil edirdi. Abşeronlular dini düşüncəyə meyilli olduqlarından, bu, onların yazdıqları əsərlərdə də özünü biruzə verirdi. Ağasəlim Fədai yaradıcılığı da qırılmaz şəkildə dini-ilahi dəyərlərlə bağlıdır. Onun yaradıcılığında Qurani-Kərimin, Allah-təalanın, imamların tərənnümünə həsr olunmuş şeirləri bədii dəyərinə və mövzusuna görə diqqəti cəlb edir. Dini mövzulu şeirlərinə baxdıqda Fədainin İslam tarixini, Qurani-Kərimi gözəl bildiyinin aydın şahidi oluruq.

*Hər kimin var isə qəlbində Əli hübbü əgər,*
*Nəyə lazım ona bu aləmara sim ilə zər.*
*Olacaq cənnət onun məskəni, var böylə xəbər,*
*Yaxşı dərk eylə, böyükdür bu sözün mənası.* (2, s. 320)

Fədai ictimai-fəlsəfi, ümumbəşəri məzmunlu, milli tariximizi, mənəvi dünyamızı əks etdirən əsərlər qələmə almağa, dövrünün aktual problemlərini yaradıcılığında əks etdirməyə müvəffəq olmuşdur. Şairin poeziyası özünəməxsus deyim tərzi, üslubu və sənətkarlıq keyfiyyətləri ilə seçilir.

**Nəticə**

Sonda bunu söyləyə bilərik ki, XIX əsrin sonu-XX əsrin əvvəlləri Bakı-Abşeron ədəbi mühitində formalaşan şairlərin poetik ənənəsi bu gün də yaşamaqdadır. Eynifikirli, eyni dünyagörüşlü şairlərin, yazıçıların bir yerə toplaşması ilə yaranan ədəbi məclislər Azərbaycan ədəbiyyatşünaslığının inkişafı və şairlərin yaradıcılığına təsiri baxımından bir sıra məsələlərin öyrənilməsində olduqca əhəmiyyətli və aktual məsələlərdəndir.

Yaradıcılığının çox az hissəsi işıq üzü görmüş, XX əsrin əvvəllərində yaşamış, klassik şeir ənənələrini yaradıcılığında əks etdirməklə yanaşı, dövrünün ədəbi-ictimai tələblərinə uyğun əsərlər yaradan, bədii söz sənətində özünəməxsus yeri və izi olan şair Ağasəlim Fədai müxtəlif səpkili yaradıcılıq nümunələri qələmə almışdır. Xalqı maarifə çağıran, vətənpərvərlik ideyalarını təbliğ edən, yüksək sənətkarlıqla yazdığı şeirlərini öyrənmək, tədqiq etmək həmin dövrün mədəni, ictimai-siyasi vəziyyətini öyrənmək və təhlil etmək baxımından əhəmiyyətlidir.

## ƏDƏBİYYAT

1. Araslı H. XVII-XVIII əsrlər Azərbaycan ədəbiyyatı tarixi. Bakı: Azərbaycan Universiteti nəşriyyatı, 1956, 327 s.
2. Axund H., S. Gizli xəzinələrdən incilər. Bakı: Tural-ə NPM, 2002, 508 s.
3. Aşurbəyli S. Bakı şəhərinin tarixi. Bakı: Avrasiya press, 2006, 416 s.
4. Bağırova K. Azər Buzovnalının poetik irsi/. filologiya üzrə fəlsəfə doktoru. Dis/. Bakı: 2018, 179 s.

5. Buzovnalı A. Məktub. AMEA ƏYİ, f.12, s.v. 56
6. Hüseynov R. Başqa xətlə yazılmış tarix // Söz (müstəqil ədəbi publisistik jurnal), 19 iyul, 2019, 40 s.
7. Xəyal S. Deyilən söz yadigardır. Bakı: Ecoprint, 2019, 629 s.
8. İmaməliyev R. Haşım bəy Sağib. “Kim kimədir”. Bakı: Boz oğuz, 1996, 80 s.
9. Qasımzadə F. XIX əsr Azərbaycan ədəbiyyatı tarixi. Bakı: Elm və təhsil, 2017, 522 s.
10. Qarayev N. XIX əsr Azərbaycan ədəbi məclisləri. Bakı: Nurlan, 2010, 326 s.
11. Məşədi A. Seçilmiş əsərləri. Bakı: Boz oğuz, 1996, 280 s.
12. Şahin F. Təzkireyi-Şahin. Bakı: MBM, 2006, 812 s.



***Резюме***

***Айтен Гусейнова***

***Влияние литературного собрания “Маджма уш-шуара” на развитие творчества Агаселима Федаи***

В статье рассматриваются литературные собрания сыгравшие важную роль в формировании литературной среды Азербайджана в XIX-XX веках и их деятельность. В тот период в разных частях Азербайджана действовали различные литературные собрания, в том числе “Дивани-Хикмет” (Дом мудрости) в Гяндже, “Гюлистан” (Цветочный сад) в Губе, “Анджуман уш-шуара” (Общество поэтов) в Ордубаде, “Фовджул-фусаха” (Собрание красноречивых) в Лянкяране, “Бейт Ус-Сафа” (Дом чистых) в Шемахе, “Маджма уш-шуара” (Собрание поэтов) в Баку, “Меджлиси-унс” (Собрание друзей) и “Меджлиси-фарамушан” (Собрание забытых) в Карабахе. На самом деле, эти собрания были основаны с теми же целями и идеалами, хотя и действовали в разных местах.

Литературное собрание “Маджма уш-Шуара”, созданное в конце XIX века, также известное как Литературный очаг, сыграло особую роль в развитии литературной среды региона Баку-Апшерон, способствуя пробуждению национального сознания населения и просвещению нации. В “Маджма уш-Шуара” принимало активное участие так много поэтов, что произведения большинства из них не удалось изучить и анализировать. Однако со временем благодаря трудам нашей интеллигенции, наших ученых члены “Маджма уш-Шуара” получили известность, и началось изучение их творчества. Агасалим Федай из Бузовны является одним из таких поэтов.

Собрание “Маджма уш-Шуара” служило школой для творчества Агасалима Федаи, помогая ему расти и становиться как поэту, а ценные знания, полученные им от своих учителей, оказали своеобразное влияние на его творчество. Мастера стихов, такие как Мешади Азер из Бузовны и Хашим бек Сагиб, которые были среди участников собрания, помогали Агасалиму Федаи, как и многим другим молодым поэтам, в его творческом пути и освоении традиционной литературы.

Произведения Низами, Насими, Физули и Омара Хайяма обсуждались и анализировались на заседаниях собрания “Маджма уш-шуара” с момента его основания, и писались такие произведения, как газели, касыды, новхы и минаджат с романтическим, религиозным, образовательным и моральным содержанием в классическом стиле. Однако с начала 20-го века азербайджанская поэзия начала приобретать новое художественное собрание, сохраняя при этом свои классические традиции. Члены литературного собрания разрабатывали произведения с новыми темами и духом независимости в ответ на экономические и политические изменения. Поэты считали науку и образование движущей силой прогресса общественного благосостояния и счастья людей. Творчество Агасалима Федаи также отражает эти черты.


**Ключевые слова:** *“Маджма уш-шуара”, литературные собрания, литературная среда Абшерона, Мешади Азер, Агасалим Федаи.*


***Summary***

***Aytan Huseynova***

***The Fostering Effect of the “Majma ush-Shuara” Literary Assembly (Mejlis) on the Creative Oeuvre of Aghasalim Fedai***

The article looks at literary assemblies and their activities, which were crucial in creating Azerbaijan's literary landscape during the 19th and 20th centuries. There were various literary assemblies

in different parts of Azerbaijan at that time, including “Divani-Hikmet” (House of Wisdom) in Ganja, “Gulustan” (Flower Garden) in Guba, “Anjumanush-shuara” (Meeting of Poets) in Ordubad, “Fovjul-fusaha” (Assembly of the Eloquent) in Lankaran, “Beit Us-Safa” (House of Purity) in Shamakhi, “Majma ush-shuara” (Assembly of Poets) in Baku, “Mejlisi-uns” (Assembly of Friendship) and “Mejlisi-faramushan” (Assembly of the Forgotten) in Karabakh. In actuality, these assemblies were founded with the same goals and ideals, albeit operating in different locations.

The “Majma ush-Shuara” literary assembly established at the end of 19th century, also known as the Literary Hearth, played a special role in the the development of the Baku-Absheron region's literary landscape, contributed to national awakening in the populace's consciousness, and the enlightenment of the nation. “Majma ush-Shuara” was attended by so many poets that the works of numerous active assembly members who actively participated havent been examined and analysed up to date. However, with the help of our scientists and intellectuals, “Majma ush-Shuara” members gradually started to be discovered and investigated. Aghasalim Fedai from Buzovna is one of such poets.

The “Majma ush-Shuara” assembly served as a school for Aghasalim Fedai's work, assisting him in growing and maturing as a poet, and the excellent knowledge he gained from his teachers inspired his creativity. Masters of verses such as Mashadi Azer from Buzovna and Hashim bey Saghib, who attended the assembly, assisted Aghasalim Fedai, like many other young poets, in his creative journey and mastery of traditional literature.

The works of Nizami, Nasimi, Fuzuli, and Omar Khayyam have been discussed and analyzed at “Majma ush-shuara” assembly meetings since its inception, and the works such as ghazals, qasidas, nohas, and minajat with romantic, religious, educational, and moral content in the classical style have been written. However, since the turn of the 20th century, Azerbaijani poetry has begun to incorporate new artistic material while keeping its classical traditions. Members of the literary assembly developed works with new topics and a spirit of independence in response to economic and political changes. Poets considered science and education to be the driving force of the advancement of people's social welfare and happiness. Aghasalim Fedai's work reflects these features as well.

**Key words:** *“Majma ush-shuara”, literary assemblies, Absheron literary environment, Mashadi Azer, Aghasalim Fedai.*

Redaksiya heyətinin üzvü fil.e.d., prof. Rzayev Seyfəddin Gülverdi oğlunun rəyi əsasında çapa məsləhət görülmüşdür.